# Şəfqət dolu ürək: Gültəkin Qafarova-Əsgərzadə

***Yaşasaydı 60 ilini qeyd edəcəkdik. Nə yazıq ki, Allah Təala ona bu işıqlı dünyada cəmi 48 il ömür sürmək nəsib elədi. Özü də qəlbi şəfqət, mərhəmət hissi ilə dolu olan şərəfli bir ömür...***



1961-ci il avqust ayının 15-də Bakı şəhərində dünyaya göz açan Gültəkin həyata gəlişi ilə ailəyə ruzi-bərəkət gətirmişdi. Həm də özündən sonra ailədə 3 oğul uşağı doğulmuşdu. Atam Ələsgər kişi Gültəkini xüsusi olaraq sevər, heç bir zaman qəlbini qırmazdı. Həm ailədə, həm də qohumlar, qonşular arasında da sevilərdi.

Gültəkin hədsiz ailəcanlı, mehriban, səmimi, xeyirxah, qayğıkeş, əliaçıq, həmçinin, çox ədalətli idi. Sözü çəkinmədən üzə deyər, kimsənin arxasınca danışmaz, qeybət qılmazdı. Təbiətcə çox sakit idi, səsi çıxmazdı. Yersiz danışıb, yersiz gülməzdi. Ağır təbiəti vardı. Təhsil aldığı Yasamal rayonundakı 158 № li orta məktəbdə oxuduğu zaman müəllimləri, şagird yoldaşları onu "sakit qız" kimi çağırırdılar. O, dərsə davamiyyəti, nizam-intizamlı olması ilə diqqət çəkirdi.

Gültəkin anaya, ataya sonsuz bağlı idi. Anam Nəcimə Nəzərlinin dünyasını vaxtsız dəyişməsi Gültəkinə çox pis təsir etmişdi. O zamandan Gültəkin ailədə qardaşlarına, bir sözlə, bütövlükdə ailəyə analıq etməyə başladı. Ailənin bütün qayğıları onun üstündə idi. Bu səbəbdən özü ailə qurmağı belə düşünmədi.

Atam Ələsgərin vəfatı isə Gültəkini bir növ depressiyaya saldı. Bəlkə də əvvəlcə anamın, sonra isə atamın ölümü Gültəkinin qəlbində qubar bağladı, dərin kök saldı. Sonralar xəstələnməsinə səbəb oldu...

Gültəkin Qafarova-Əsgərzadə ömrünün 20 ilindən çoxunu Azərbaycan Qızıl Aypara Cəmiyyətində xeyirxah, humanist bir işə həsr edib. O, AzQAC-ın 2 illik tibb bacıları kursunu əla qiymətlərlə bitirərək, Cəmiyyətdə kiçik tibb bacısından baş tibb bacısına kimi şərəfli bir yol keçib. Cəmiyyətin fəaliyyətinin əsas istiqamətlərindən biri şəfqət xidmətidir. Bu xidmət çərçivəsində şəfqət bacıları kimsəsiz, tənha qocalara, xroniki xəstələrə evdə patronaj tibbi xidmət həyata keçirirlər. Məhz, Gültəkin Qafarova-Əsgərzadə də bu fədakar şəfqət bacılarından olmuşdur. Şəfqət bacısı olmaq üçün ilk növbədə insanın qəlbində şəfqət, mərhəmət, xeyirxahlıq hissləri olmalıdır. Bütün bu insani keyfiyyətləri özündə ehtiva edən Gültəkin humanistlik nümayiş etdirərək, şərəflə bu vəzifəni daşıdı, insanların sevgisini, hörmət və rəğbətini qazandı. Xəstələri - kimsəsiz tənha qocalar Gültəkini "Ümid bacısı" adlandırmışdılar. Onlar böyük ümidlərlə, intizarla Gültəkinin gəlişini gözləyərdilər. Gültəkinin hər gəlişi onlar üçün bir bayrama çevrilərdi. Dərdlərini onunla bölüşərdilər. Çünki onların Azərbaycanda heç bir qohumu yox idi. Mehrlərini Gültəkinə salmışdılar. Gültəkin də həmişə onlara böyük sevgi ilə, mehribanlıqla, məsuliyyətlə baş çəkər, problemləri ilə maraqlanar, onların həllinə çalışardı. Qaydaya görə, patronaj tibb bacısı həftədə 2-3 dəfə xəstəyə, kimsəsiz qocaya baş çəkməlidir. Gültəkin isə demək olar ki, həftənin hər gününü onlara baş çəkərdi. Hətta elə olurdu ki, axşam, bəzən gecə vaxtı Gültəkinə zəng vururdular. O da qardaşlardan biri ilə onların evlərinə gedər, həyan olardı.

Bu minvalla Gültəkin ömrünün ən mənalı, ən xoşbəxt günlərini yaşayırdı. Lakin, qəflətən düçar olduğu ağır, sağalmaz xəstəlik Gültəkinin bütün arzularını, humanist fəaliyyətini alt-üst elədi. Bu xəstəliklə, eləcə də yaşamaq uğurunda mübarizə aparan Gültəkin həyata gözlərini yumana qədər kimsəsiz, tənha qocaları, xroniki xəstələri düşündü. O, tez-tez ailə üzvlərinə deyərdi ki, mən yataqdayam, görəsən onlara kim baş çəkəcək, qayğılarına kim qalacaq?... Ölüm yatağında belə onları düşünməsi Gültəkinin necə bir humanist, şəfqət, mərhəmət, xeyirxahlıqla dolu qəlbə malik insan olmasından xəbər verirdi.

2008-ci ilin dekabr ayında Azərbaycan Qızıl Aypara Cəmiyyəti Gültəkin Qafarova-Əsgərzadənin Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatında xüsusi fəallığını, Cəmiyyətin inkişafındakı xidmətlərini, həssas təbəqədən olan insanlara tibbi-sosial qayğı göstərilməsində, respublikada səhiyyə maarifi işinin təbliğinin inkişafında uzun müddətli səmərəli fəaliyyətini nəzərə alaraq, onu Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ən yüksək mükafatı olan " Florence Nightingale" medalına təqdim etdi. O bu xəbərdən xeyli sevincək oldu. Lakin medalı almaq isə ona nəsib olmadı. 2009-cu il yanvarın 12-də Gültəkin bu işıqlı dünyaya vida etdi...

2009-cu ilin may ayının 12-də "Ümumdünya Tibb bacıları günü"ndə Cenevrədə Beynəlxalq Qızıl Xaç Komitəsinin "Florence Nightingale" medalının təltifedilmə mərasimində Gültəkin Qafarova-Əsgərzadə bu medala layiq görüldü. Lakin, çox təəssüf ki, Gültəkin artıq həyatda yox idi...



Həmin ilin iyun ayının 12-də Beynəlxalq Qızıl Xaç Komitəsinin Bakı nümayəndəliyində düzənlənən təqdimetmə mərasimində həmin medal Gültəkinin ailə üzvlərinə təqdim olundu...

"Florence Nightingale" medalı Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ən yüksək mükafatı sayılır. Hazırda dünyada 1512 tibb işçisi bu medalı daşıyır. Bu sırada 13 tibb işçisi Azərbaycanın payına düşür. Onlardan biri də məhz Gültəkin Qafarova- Əsgərzadə olmuşdur.

Gültəkinin ölümündən sonra onun xatirəsini əbədiləşdirmək üçün haqqında İTV-də "Yarımçıq qalmış arzular" adlı film çəkilmiş, həm Azərbaycan Qızıl Aypara Cəmiyyətində, həm də vaxtilə təhsil aldığı Bakı şəhəri, Yasamal rayonundakı 158 № li orta məktəbdə xatirə guşəsi yaradılmış, ayrı-ayrı kanallarda haqqında süjetlər nümayiş etdirilmiş, müxtəlif yazılar dərc edilmiş, 50 illik yubileyi təntənə ilə qeyd olunmuşdur.

Bəli, Gültəkin Qafarova- Əsgərzadə Allah Təalanın seçilmiş bəndəsidir, desəm, yəqin ki, yanılmaram. O, 48 illik qısa, lakin son dərəcə mənalı ömründə insanlığı, nəcibliyi, mərhəməti, şəfqəti, xeyirxahlığı aşıladı, onların fövqündə durdu, xoş, şirin xatirələrlə yaddaşlara həkk olundu. O, mələk siması ilə qəlblərə köçdü. Cismani öldü, amma ölməzliyə qovuşdu. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin və onun şəfqət xidmətinin tarixində Gültəkin Qafarova-Əsgərzadənin adı həmişə dərin hörmət və ehtiramla yad ediləcəkdir. Onun keçdiyi bu parlaq, şərəfli, şəfqətli həyat yolu gələcək tibb bacıları üçün bir örnək olacaqdır.

Filologiya elmləri doktoru, şair Əsmətxanım Məhsətinin Gültəkin Qafarova-Əsgərzadəyə həsr etdiyi "Şəfqət bacısı" adlı şeirində deyilir:

*Aramızda indi yoxdur Gültəkin,*
*Tez açıldı, nə tez soldu gül təki,*
*Əməlləri işıq saçar gün təki,*
*Sönməz nurdur, şəfəqdir şəfqət bacım.*

Ruhun şad olsun, əziz bacım Gültəkin. 60 yaşın mübarək! Amma sən hər zaman xatirələrdə 48 yaşlı, mələk simalı, şəfqətli, nurlu bir xanım kimi qalacaqsan..

Allah rəhmət eləsin.

**Qafar Əsgərzadə**